Kənan Hacının dörd avtoportreti



Vasif Osmanov

Rəssamların hamısı yəqin ki, yaradıcılığı dövründə heç olmasa, bir avtoportret çəkib öz daxili aləmini və zahirinin xarakterik cizgilərini seyrçilərinə göstərirlər.Çox vaxt özlərini standartlardan kənar başlı-bədənli, qədim yunan filosoflarına xas gözlü, baxışlı təsvir edirlər. Bu əsərlər tamaşaçılara hansısa gizli kodlu informasiyaları ötürür. Bu gizlinlərin içinə girib əsərin bizə aşıladığı mətləbləri 'oxumaq'' qalır bizim zəkamızın dərinliyinə. Bir dəfə bir rəssam dostumun avtoportretini görəndə soruşdum ki, niyə özünü bu günə qoymusan? Zarafatımız, bir-birimizə ərkimiz vardı. Dedi: mən özümü belə görürəm. Susdum. Doğrudanmı onlar özlərini belə qeyri-adi təsəvvür edirlər? Niyə özlərini abstrakt cizgilərlə təqdim edirlər? Bilmirəm. Yəqin ki...

Bu "ört basdır"da ancaq sənətə qiymət verməyi bacaranlar avtoportret sahibinin mənəvi aləmini dəqiq görə bilərlər. Bu, sənətin dilidir, ecazkarlığıdır. Çünki rəssamlar rənglərin dili ilə bütün bəşər övladları ilə danışa bilən poliqlotlardır. Bircə bu cəhətdən fırça qələmin qarşısında "öyünə" bilər.

Kənan Hacının "avtoportret"lərinə (daha bu sözü dırnaq işarəsi arasında yazmayacağam), yəni özünü təqdim edən söz sənətinə çox "tamaşa etmişəm". Kənan bəyin yaradıcılığını yaxşı tanıdığım üçün onun fırçayla yox, sözlə cızılmış avtoportreləri mənə doğmadır, oradan əsl Kənan Hacı baxır mənə. Rəssamların əl işlərindən fərqli olaraq Kənan Hacının avtoportretlərinin əksəriyyətində əndrəbadilik görmürəm, özüdür, tam özüdür -duyğulu ürəyi, mehriban baxışları, səmimi təbəssümü, musiqiyə bənzər səsi, yerişi, duruşu, insanlara qayğısı, etibarlılığı, etikası, günahlarını etirafı, başqlarının uğuruna sevinməsi və dəyərləndirməsi ilə...

Sənətin bütün növləri kimi rəssamlıq da, söz sənəti də insan təxəyyülünün məhsuludur, fırçanın, qələmin yox, qəlbin işidir. Əsas qəlbin səmimiliyidir. Gendən gələn bir mənəvi dəfinədir, qəlbin aynasıdır. Bu ayna maddilik tanımır, kimisə görünmək istədiyi kimi yox, olduğu kimi göstərir, 'mən ölüm, sən öl bilmir, onun bir üzü var. Səni gözəl, yaxud eybəcər göstərirsə, bu onun yox, sənin günahındır. Bu aynaya güc göstərsən, özünü eybəcər görüb onu yumruqlasan, daha bədheybət – üzü, gözü, ağzı əyri görünəcəksən. Eybəcərliyinin sənin ürəyinin, gözünün görə bilmədiyi tərəfləri aynadakı çatların arasından üzünə hırıldayacaq, sir-sifətinin əsl simasını daha da pis günə qoyacaq, əsəblərini cırmaqlayacaq. Onda çaş-baş qalacaqsan, Rüfət Əhmədzadənin qəhrəmanı kimi 'bu mənəm, mən deyiləm?'' sualı qarşısında dodaq büzəcəksən...

Kənan Hacının avtoportretləri onun ÖZüdür. O və biz suallar labirintində özümüzdən və yan-yörəmizdəkilərdən soruşmuruq: "bu kimdir?". Özünü belə aydın təsvir etmək üçün cəsarət hər kəsə nəsib olmur.

Hamı kimi acılı-şirinli, amma acılıq dozası çox olan ömür yaşayan, mətinliklə, inadkarlıqla bir çox acıların dadını dəyişməyi, bu laqeyd mühitdə özün təsdiqləməyi bacaran Kənan Hacının dörd avtoportreti - səmimi, həm də cəsarətli etiraflarla dolu dörd hekayəsi məni Kənan Hacının söz dünyasına yenidən "səyahət" etməyə vadar etdi. Bu "səyahət"lər zamanı yeni-yeni "ərazi"lər, insan qəlbi adlı yeni dünyada yeni "ada"lar tapdım, sevindim, amma "Evrika!" qışqırmadım, kəşf etdiyim adaları "zəbt" edib yeni "müstəmləkə"lər yaratmadım. Çünki söz ürəyimi yumşaltdı, kövrəltdi, rəhmdil elədi. Bir də sözə könül verənin yadına işğalçılıqmı düşər? Əksinə, böyük "söz ada"larına rast gələndə onlara baş əydim, özüm sözün köləsinə döndüm.

Kənan Hacı adlı söz planetində nə qədər "arxeoloji qazıntı"lar



aparsam da, hər dəfə yeni-yeni tapıntılara rast gəlirəm. Bu dörd avtoportret - dörd hekayə tanıdığımız, tez-tez bir masa arxasında əyləşib polemikalar etdiyimiz, çay evində "poeziya məclisi" yaratdığımız Kənan bəyin portretinə yeni cizgilər əlavə elədi.

Bu hekayələr yazıçının iç dünyasıdır, heç nəyi gizlətməyən açıq söhbətləridir. Hər kəs günahlarını, çatışmayan cəhətlərini anlayırsa, onu redaktə etmək çətin deyil. Söhbət bəzək-düzəkli, üstü bəzək redaktorluqdan getmir. Özünün ciddi redaktoru, yaxud senzoru olanlar səhvlərini tez düzəldə bilirlər, bir də belə səhvlərə yol vermirlər. Vicdanımızı həmişə oyaq saxlasaq, özümüzdəki yaxşını, pisi tez tanıyarıq.

Kənan Hacıya görə, ədəbiyyatın başlıca problemi insandır. Kənan bəyin avtoportretlərindən boylanan bəni-insan "ən xeyirxah və humanist funksioner" olmasa da bizim özümüzük, tanışlarımız, doğmalarımızdı. "Bəlkə də ədəbiyyat olmasaydı bəşəriyyət daha çox itkilərə məruz qalardı"- deyir Kənan Hacı. Tam razıyam...

Birinci avtoportret: "Qapı"

"Qapıdan keçmək üçün içənlərin yeri niyə dəlilərin yanı" olsun, kababçı Vəli? Sən haradan biləsən bu tənhaların halını? Sən hamının ürəyini yağlı tikə bilib şişə keçirmə, bil ki, qapıdan keçmək əzabdı. Qapıların o üzündə bizi doğmalarımız gözləyir - satılmış evinin xiffətini çəkən, fərsiz oğlunu canı-dildən lənətləyən atalar, uşaq kimi bələmək istədiyimiz əriyib yumruq boyda qalan analar, ancaq qanadları böyüyən xatirələr, "donmuş zamanın çoxdan unudulmuş tanış qoxusu", daha nələr, nələr... Bunu kababçı Vəlilər, "yazıb-oxumaqdan dəli olıceysən, başuvi yazı-pozuynan xarab eləməkdən başqa əlinnən bir iş gəlmir, qərdeş, mən pul qazanıram e..." qürrəsiylə "piştaxtanın dalında çürüyən göysatan oğlanlar çətin anlayarlar.

"Donmuş zamanın çoxdan unudulmuş tanış qoxusunu" sinəsində yaşadan dədənin qəbrinin "başdaşının üstündəki soluxmuş yazını" təzələmək də olar, amma o qayğısız anları yox, Kənan Hacı. Dədələrimiz "gor evinə köçəndə mərhəmətlə qapını o üzdən bağlayıb açarını da özüylə götürüblər" ki, matah balaları o tərəfə gəlməsinlər...

"Gündən günə kiçilən, çərçivələri büzüşən, yığılan", rəngi solmuş, "çürüyüb taxtaları ovxam-ovxam olmuş, ağacdələnlərin taqqataraq döydüyü" (Məmmıd İsmayıl), payızın ciskininin "ay qonşu, bu evin yiyəsi hanı?" (Camal Yusifzadə) nəvalı çağırışının diksindirdiyi bir bağlı qapı və onun arxasında yetim-yetim dayanıb ata-analı günlərinin nisgilindən büzüşüb qalan, ata-ana ruhundan əfv uman bir oğultablosuna rast gəlsəniz, bilin ki, bu Kənan Hacının birinci avtoportretidir.

İkinci avtoportret: "Satılmış ev"

"Dərd içindən yedikcə çölü quruyub göz dağına dönən, atanın bar verməmiş arzuları bir küncdə boynuburuq", məlul-məlul dayanan, sahibini erkən itirmiş, "papiros çəkən sahibinin ciyərləri kimi qaralan, künc-bucağında hörümçəklər tor toxuyan", bacasından özgə tüstü çıxan, arxa fonda "papiros çəkə-çəkə tüstülü ah çəkən, anasının ömrü yavaş-yavaş çat verən, atasının özü tikmədiyi son evinin - məzarının atasına darısqal göründüyünü" ürəyi göynəyə-göynəyə hiss edən, qorxudan hətta "yuxuda gözləri alacalanan, ürəyinin döyüntüsü qulaq pərdələrini az qala partladan, sübhü açılmaq bilməyən, "gərək satmayaydım!.. Mən gərək evi satmayaydım!" fəryadı ilə özünü mühakimə edən, edam kötüyünün yanında cəlladı gözləyən bir yazıçının sözlə rənglər yaradıb sözün diliylə çəkilmiş əsərini görsəniz, bu Kənan Hacının ikinci avtoportretidir.

Üçüncü avtoportret: "Boz ilan"

Ev-eşik yerinə 'dünyayla üzülüşmüş, divarları mamır basmış yastı-yapalaq, tənha bir özgə daxmaya'' sığınan, 'çəkdiyi rəsmləri rütubət, nəmişlik'' güvə kimi yeyən, 'molberti, fırçaları, rəngləri daxmanın bir küncündə'' yiyəsiz qalan, 'taleyini qaranlıq gecənin insafına buraxıb hər gecə özünü nəm çarpayıya atan'', bütün ömrü qışa dönüb 'bıçaq kimi iti şaxta, sazaq sicim-örkən kimi uzanaraq tükənmək, səngimək bilməyən'', yaşamağı it əzabına dönən rəssam, həm də yazıçının Günəşdən umduğu nədir? 'Görəsən bu Günəş öz istisindən bir balaca qışa saxlasaydı, dünya dağılardı?''. Taleyin töhfəsinə asilik edən rəssamın, və yaxud yazıçının Günəşin 'işi'nə qarımasının da səbəbi var - tənhalıq. Bəli, tənhalıq adamı deyingən də edir. 'Boz tənhalığın cəngindən bir-iki saatlıq da olsa yaxasını xilas edə bilmək üçün hər axşam yolunu kababçı Vəlinin ucuz, miyanə yeməkxanasından salan, araq şüşəsinin boğazından dibinə səyahət edən'' bir qələm adamının çəyirtkələrlə, cırcıramalarla, siçanlarla mücadiləsindən ağrılı səhnə varmı? Ancaq kitabların, qələmin, kağızın, yaxud molbertin, fırçaların, rənglərin könüldaşına çevrilib sözün, sənətin keşiyində dayananın, "cırıltısı yaşayıb gününü görmüş qarıların cıyıltısı kimi baş aparan çarpayıda" boz ilanla yastıqdaş olanların sənət uğurları nəyin bahasına başa gəldiyini düşünürsünüzmü?

Bu məchul, cavabını tapmaq yaşamaqdan daha çətin olan sualların qarşısında dayanıb hər ikimiz - Kənan Hacı və mən rəngləri qarışmış, üz-gözündəki əzablardan hətta Əzrayıl qorxan nəhəng bir həyat "mənzərə"sinə baxırıq. Bu Kənan Hacının üçüncü avtoportretidir.

Elə mənin də...

Dördüncü avtoportret: "Xeyir-dua"

"Oğlu üçün həyatını şam kimi əridən anaya oğulluq borcunun heç mində birini qaytarmağı bacarmayan" (hamımız kimi), anasının sağlığında evlənib anasına övlad toyunda gözlərindən çeşmə-çeşmə sevinc yaşları axıtmaq, qol qaldırıb süzmək fərəhini "qıymayan", anasının başdaşısız qəbrinin qara daşları üzqarası kimi hər dəfə dost-tanış, qohum-əqrəba yanında onu xəcil edən", buna görə də nişanlısının yanında "xəcalət hissi alnına tər damcıları kimi düzülən" oğul. "Ana qarşısındakı irilixırdalı günahlarının heç birini yuya, ana məzarı başında başı dik dayana bilməyən", ananın narahatlığını dəf edərək ananın matah oğluna sirdaş, könüldaş olan bir nişanlı qız. Arxad planda görünən "oğlunu naz-nemət içində böyüdən", oğul toyu alnına yazılmayan, bu dünyadan nəvənin cənnət qoxusuna tamarzı gedən, nakam ömürlü, gözləri çüxura düşmüş bir ana.

Analar haqq dünyasında da nigarandır, narahatdır, qayğılıdır. Ona görə də sabah toyları olacaq gəlininin yuxusuna qonaq gəlir, oğlunu gəlininə əmanət etmək üçün, oğlu ilə gəlininin təzə evlərinə. Hətta bu avtoportretdə ananın sözlərini də görürəm:

"Qızım, bəs məni tanımırsan? Mən onun anasıyam, sizin evlənməyinizdən gec xəbər tutmuşam... Gəldim sizi təbrik edim. Mən onu, oğlan olmağına baxmayaraq, naz-nemət içində böyütmüşəm, onun həyatda heç bir çətinliyi olmayıb... Məndən sonra bir müddət kimsəsiz qaldı, çox acılar çəkdi, bu həyatın amansızlığını gördü, hamısını bilirəm, hər şey mənə əyan olub. İndi daha o, tək deyil, onu sənə tapşırıram, qızım. Onu qoru, qoyma fikir çəksin, bütün acıları ona unutdur. Sağ ol, mənim balam, xoşbəxt olun!"

Bu möhtəşəm avtoportretin qarşısında kövrəldim, bu sənət incisinə tamaşa edənlərin hamısının nəmlənmiş gözlərini də gördüm. Bu əsər onu seyr edənlər üçün "Qəlbin gigiyenası" idi, qəlbimizdəki məkri, şeytandan qalma niyyətləri təmizləyirdi. Kənan bəyin "Xeyir-dua" adı verdiyi bu avtoportretə ikinci ad verdim: "Qəlbin gigiyenası". Bu əsəri almağa pulunuz olmasa, heç təəssüflənməyin. Onu qəlbinizdə aparın, Kənan Hacının iç dünyasından. Həmişə gərəyiniz olacaq.

Təəccübümü gizlədə bilmədim: 'Görəsən, Kənan Hacı bu ülvi duyğularla limhəlim dolu ana, oğul və gəlin adlı üç sevgi planetini bir avtoportretə necə yerləşdirə bilib? Məncə, ilahi ana, oğul və gəlin sevgisinin sərhədsizliyinə görə. Bir də Tanrı bəxşişi olan istedadına görə...

Mücərrədlikdən uzaq, həyat həqiqətlərini tərənnüm edən, xatirələrin qoynunda sevinən, kədərlənən, o günlərin qədrini bilməsə də (hamımız kimi), bu gün həmin günlərin nostalgiyası ilə yaşayan, gələcək sevincli, uğurlu ömrün üfüqlərini həssas ürəyinin gözləri ilə görən avtoportretlər ən yaxşı və unudulmayan həyat dərsləri ala biləcəyimiz sənət inciləridir. Əminəm ki, belə incilər çox yaranacaq...

Heç vaxt yenilməyəsən, bəsirət gözləri həssas, ürəyi təpərli, təxəyyülü sərhədsiz, qələmi iti olan Kənan Hacı!...